ISSN:2148-2292

Akademik Tarih ve Düşünce Dergisi, 2019, 6 (4), ss. 2589-2604

Academic Journal of History and Idea, 2019, 6 (4), pp. 2589-2604

Araştırma Makalesi
Original Article

# Transkafkasya'da (Güney Kafkasya) Devletlerarası İlişkiler ve Mülteci Sorunları (1918-1920)

**Nərmin Xanməmmədova***

**ORCID: 0000-0002-0106-0879**

**Öz**

28 Mayıs 1918'de bağımsızlık ilan eden Azerbaycan Demokratik Cumhuriyeti, dış politika konularına özel önem verdi. Komşu devletlerle dostane ilişkilerin kurulması Azerbaycan diplomasisindeki öncelikli bölgelerdi. Azerbaycan Cumhuriyeti'nin Ermenistan ve Gürcistan ile ilişkilerinde mülteci sorunu bir öncelikti. Mülteci sorununu gidermek için Savunma Bakanlığı kuruldu. Azerbaycan hükümeti bu sorunu sadece ülke içinde değil diğer ülkelerle ilişkilerde de vurguladı.Azerbaycan, Gürcistan, Ermenistan ve Dağlık Karabağ Cumhuriyeti üst düzey temsilcilerinin katıldığı bir konferansta mültecileri önceki görevlerine geri döndürmek için hükümetler arası bir komisyonun oluşturulması bu sorunun çözülmesinde atılan başarılı adımlardan biriydi. Tüm mülteciler bu komisyon tarafından ele alınmak zorunda kaldı. Ancak devletlerarası komisyonun finanse edilmesine ilişkin genel bir anlaşmaya varmak mümkün olmadı ve Deniki'nin Dağıstan'a düzenlediği saldırı nedeniyle kongreni erteledi. 23 Haziran 1919'da Azerbaycan hükümeti, her iki ülkenin temsilcilerinden oluşan ortak bir merkezi komisyon önerisi ile Ermeni liderliğine döndü. Ancak Ermeni tarafı daha önce anlaşmış olmasına rağmen, komisyonun faaliyetleri etkisizdi. Hükümetin çabalarına rağmen, mülteci sorunu da dahil olmak üzere bazı önemli sorunlar çözülmedi.

**Anahtar Kelimeler:** İstanbul Konferansı, Kafkas Konferansı, Mülteci Komitesi, Eyaletlerarası Mülteci Komisyonu

**Gönderme Tarihi: 05/09/2019** **Kabul Tarihi:23/12/2019**

*Doktorant,Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu, E-posta:n_khanmamedova@yahoo.com*

© ATDD Tüm Hakları Saklıdır

# Problems of interstate relations and refugees in Transcaucasia (South Caucasus) (1918-1920)

**Abstract**

The Azerbaijan Democratic Republic, which declared independence on May 28, 1918, paid special attention to foreign policy issues. The establishment of friendly relations with neighboring states were priority areas in Azerbaijani diplomacy. In the relations of the Republic of Azerbaijan with Armenia and Georgia, the refugee problem was a priority. The Ministry of Defense was created to address the refugee problem. The Azerbaijani government emphasized this problem not only within the country, but also in relations with other countries.The creation of an intergovernmental commission to return refugees to their previous positions at a conference of senior representatives of Azerbaijan, Georgia, Armenia and the Nagorno-Karabakh Republic was one of the successful steps in solving this problem. All refugees had to be handled by this commission. However, it was not possible to reach a general agreement on financing the interstate commission and postponed the conference due to Deniki's attack on Dagestan. On June 23, 1919, the Azerbaijani government turned to the Armenian leadership with the proposal to create a joint central commission, consisting of representatives of both countries. However, although the Armenian side had previously agreed, the activities of the commission were ineffective.Despite government efforts, some important issues, including the refugee problem, have not been resolved.

**Keywords:** Istanbul Conference, Caucasus conference, Refugee Committee, Interstate Commission on Refugees

**Received Date: 05/09/2019** **Accepted Date: 23/12/2019**

# Проблемы межгосударственных отношений и беженцев в Закавказье (Южный Кавказ) (1918-1920)

**Резюме**

Азербайджанская Демократическая Республика, провозгласившая независимость 28 мая 1918 года, уделила особое внимание вопросам внешней политики. Создание дружеские отношения с соседними государствами были приоритетными направлениями в азербайджанской дипломатии. В отношениях Азербайджанской Республики с Арменией и Грузией проблема беженцев была приоритетной. Министерство обороны было создано для решения проблемы беженцев. Правительство Азербайджана подчеркнуло эту проблему не только внутри страны, но и в отношениях с другими странами.Создание межправительственной комиссии по возвращению беженцев на прежние позиции на конференции высокопоставленных представителей Азербайджана, Грузии, Армении и Нагорно-Карабахской Республики было одним из успешных шагов в решении этой проблемы. Все беженцы должны были быть обработаны этой комиссией. Однако достичь общего соглашения о финансировании межгосударственной комиссии не представляется возможным и отложил конференцию из-за нападения Деники на Дагестан. 23 июня 1919 года правительство Азербайджана обратилось к руководству Армении с предложением создать совместную центральную комиссию, состоящую из представителей обеих стран. Однако, хотя армянская сторона ранее и согласилась, деятельность комиссии была неэффективной.Несмотря на усилия правительства, некоторые важные вопросы, включая проблему беженцев, не были решены.

**Ключевые слова:** Стамбульская конференция, Кавказская конференция, Комитет по делам беженцев, Межгосударственная комиссия по делам беженцев.

**Получено: 05/09/2019** **Принято: 23/12/2019**

## Giriş

Rusiya imperiyasının dağılmasından sonra Zaqafqaziyada (Cənubi Qafqazda) yaradılan yeni dövlət orqanı-Zaqafqaziya Seymi (10 fevral-26 may 1918-ci il) də diyardakı konfliktlərə son qoya bilmədi. Ermənilərin İrəvan quberniyasında müsəlmanlara qarşı həyata keçirdikləri soyqırım siyasəti müsəlman fraksiyasının kəskin etirazına səbəb oldu. Müsəlman fraksiyası Seymdən ermənilərin həyata keçirdikləri soyqırımı dayandırmaq tələbi ilə çıxış edirdi. Zaqafqaziya Seymininin bütün fəaliyyəti fraksiyaların mübarizəsi, bir-birinə qarşı ərazi iddiaları şəraitində keçirdi. 1918-ci ilin mayında Zaqafqaziya Seymində fraksiyalar arasındakı ixtilaflar son həddə çatdı. 1918-ci il mayın 26-da gürcülər Seymdən çıxıb Gürcüstanın müstəqilliyini elan etdilər. Həmin gün müsəlman fraksiyasının üzvləri Azərbaycan Milli Şurasını yaratdılar. Mayın 28-də Milli Şura İstiqlal bəyannaməsini qəbul edərək müstəqil Azərbaycan Cümhuriyyətinin yarandığını elan etdi. Mayın 30-da Azərbaycanın öz müstəqilliyini elan etməsi haqqında radio-teleqrafla dünya dövlətlərinə məlumat verildi. Bu əslində Cümhuriyyətin beynəlxalq münasibətlər sahəsində ilk müstəqil addımı idi. Azərbaycan Cümhuriyyəti yarandığı gündən fəal xarici siyasət yeritməyə başladı. Dünyanın bir çox ölkələri ilə səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaradaraq, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər bağladı. Qonşu dövlətlər olan Gürcüstan və Ermənistanla münasibətlər isə bir qədər fərqli idi. Belə ki, yenicə yaranmış Cənubi Qafqaz respublikalarının əraziləri və sərhədlərinin konkretləşdirilməməsi ciddi problemlər yaradırdı.

## a-Azərbaycan Cümhuriyyətinin Ermənistan və Gürcüstan Respublikalari ilə Münasibətləri

### a-1.Ermənistan və Gürcüstan Respublikaları İlə Ərazi İddiaları Və Qaçqınlar Problemi

Milli Şuranın 1918-ci il 29 may tarixli iclasında səs çoxluğu ilə İrəvan Ermənistan Respublikasına güzəşt edildi və onun paytaxtı kimi tanındı.[1] Qədim Azərbaycan torpaqlarında öz dövlətini yaratmış ermənilər ilk gündən başlayaraq "Böyük Ermənistan" yaratmaq üçün Azərbaycana və Gürcüstana qarşı əsassız ərazi iddiaları irəli sürdü. Bu səbəbdən də 1918-ci ilin iyununda Gürcüstanda diplomatik nümayəndəlik(M.Cəfərov səfir təyin olundu) açdığı halda, Ermənistanla birbaşa diplomatik münasibətlərin yaradılması yalnız 1919-cu ilin əvvəlində mümkün oldu. Həmin vaxtadək Ermənistanla yazışmalar Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyi vasitəsilə həyata keçirilirdi.[2]

1918-ci il iyunun 4-də Batumda Osmanlı imperiyası ilə yeni yaranmış Gürcüstan, Ermənistan, Azərbaycan respublikaları ilə sərhəd xəttinin müəyyənləşdirilməsi nəzərdə tutulsa da, Ermənistan tərəfin ambisiyası ucbatından bu mümkün olmadı.

Azərbaycanla Gürcüstan arasında da ərazi mübahisələri vardı. Gürcüstan hökuməti keçmiş Tiflis quberniyasına daxil edilmiş Azərbaycan torpaqlarını - Borçalı, Qarayazı və Sığnax mahallarını Azərbaycana qaytarmaqdan boyun qaçırdı. Gürcü silahlı qüvvələri alman hərbi dəstələri ilə birləşərək, 1918-ci il iyunun əvvəllərində Borçalıya daxil oldular. İyunun 14-də Azərbaycanın Xarici İşlər Naziri M.H.Hacınski azərbaycanlıların məskunlaşdığı Borçalıya və digər ərazilərə birləşmiş gürcü-alman hərbi qüvvələrinin yeridilməsinə qarşı nota verdi, sərhəd məsələsinin siyasi yolla həll olunmasını təklif etdi. Gürcüstan hökuməti buna razılıq vermədi.[3] Cənubi Qafqaz respublikaları arasındakı ərazi mübahisələri daha kəskin şəkil almağa başladı. Buna görə də həmin problemin beynəlxalq İstanbul konfransında (1918-ci il iyun) müzakirə edilməsi qərara alındı, lakin bu konfrans baş tutmadı.

---

[1]Nəsib Nəsibli, *Azərbayan Demokratik Respublikasının xarici siyasəti*, Bakı: Qanun nəşriyyatı, 2011, 108.
[2]Musa İsmayıl, *Azərbaycan beynəlxalq münasibətlər sistemində (mart 1917 - aprel 1920-ci illər)*, Bakı: Bakı Universiteti nəşriyyatı, 2011, 90.
[3]Azərbaycan Respublikası Dövlət Arxivi ( bundan sonra-ARDA), fond 970, siyahı 1, iş 11, v. 6-6a; iş 18, v. 15.

Azərbaycan Cümhuriyyətinin Ermənistan və Gürcüstanla münasibətlərində qaçqınlıq problemi prioritet məsələlərdən idi. Hələ 1918-ci ilin əvvəllərində ermənilərin İrəvan quberniyasında törətdikləri qırğınlar nəticəsində qaçqınların sayı 80 min nəfəri keçmişdi.[4] İlk əvvəllər İrəvan quberniyasının qəzalarından qovulan azərbaycanlılar İrəvan şəhərinə toplaşırdılar. 1918-ci il aprelin 15-də İrəvan şəhərində beş minə qədər qaçqın azərbaycanlı var idi.[5]

1918-ci ilin avqustunda Eçmiədzin və Sürməli qəzalarının 50-dən artıq müsəlman kəndinin dağıdılması və talan edilməsi ilə qaçqın düşən əhalinin əsas hissəsi İrəvan şəhərinin yaxınlığında yerləşən Zəngibasarda toplaşdı. Qaçqınların böyük əksəriyyəti isə müxtəlif yerlərə səpələnmişdilər və onların hara getmələri barədə dəqiq məlumat yox idi. Talin rayonundan qaçqın düşən beş min nəfər azərbaycanlı Arpaçayı keçərək Naxçıvana gəlmişdi.[6] Vəziyyətin çətinliyini nəzərə alan Azərbaycan hökuməti dərhal təxirəsalınmaz tədbirlərə əl atdı. Qaçqınların məsələsi ilə məşğul olmaq üçün Himayədarlıq Nazirliyi yaradıldı. Azərbaycan hökuməti bu problemi yalnız ölkə daxilində deyil, eləcə də digər dövlətlərlə münasibətlərində də önə çəkdi.

### a-2.Qafqaz Konfransı (1918-1919)

Birinci Dünya müharibəsinin sona çatması, yaranmış yeni beynəlxalq şərait və Qafqaz dövlətləri arasında gərginləşən durum region xalqları arasındakı problemlərin həlli, xüsusi ilə də ərazi-sərhəd mübahisələrin ətezliklə son qoyulmasını labüd edirdi. Bu məqsədlə 1918-ci il oktyabrın 27-də Gürcüstan hökuməti Azərbaycan, Ermənistan və Şimali Qafqaz Dağlılar Respublikasının səlahiyyətli nümayəndələrini Tiflisə konfransa dəvət etdi. Gürcüstanın konfransın gündəliyinə təklif etdiyi məsələlərdən biri də, “Sərhəd məsələləri də daxil olmaqla bütün mübahisəli məsələlərin maraqlı dövlətlər arasında sazişlər yolu ilə, bu sazişə nail olmadıqda - arbitraj vasitəsi ilə həll edilməsi” idi. Ermənistan nümayəndə heyətinin konfransa gecikməsi ilə bağlı konfransın işi 10-15 gün təxirə salındı. Konfrans Ermənistan nümayəndəsi olmadan noyabrın 14-də öz işinə başladı. Gürcüstanı konfransda Y.P.Gegeçkori vəN.V.Ramişvili, Dağlılar Respublikasını V.Cabargiyev və P.Kotsev, Azərbaycanı isə diplomatik nümayəndə M.Y.Cəfərov təmsil edirdi.

---

[4]ARDA, fond 970, siyahı 1, iş 1, v.29.
[5]ARDA, fond 970, siyahı 1, iş 54, v.59.
[6]Alı Mustafayev, *Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan,* Bakı: ADPU-nun nəşriyyatı, 2013, 88.

Ermənilər Gürcüstanla sərhəd məsələsini həll etməmiş ümumi konfransda iştirak etməyəcəkləri qərarında israrlı idilər.[7] Birinci Qafqaz konfransı bir neçə dəfə təxirə salındı və Ermənistan-Gürcüstan müharibəsi ilə (1918, dekabr – 1919, yanvar) əlaqədar olaraq yarımçıq qaldı. Erməni- gürcü müharibəsinə ikitərəfli danışıqların başlanması ilə konfransın (Tiflis, 9 yanvar 1919-cu il) işi yekunlaşdı. Danışıqların nəticəsi olaraq, ingilislərin vasitəçiliyi ilə Borçalı paylaşdırıldı-şimalı gürcülərə, cənubu ermənilərə çatdı. Loru nahiyəsi isə bitərəf zona elan olundu; ona nəzarəti ingilislərin başçılığı ilə qarışıq komissiya həyata keçirməli idi. Şübhəsiz ki, Azərbaycan Cümhuriyyəti bu qərarla razılaşa bilməzdi.[8]

Bu müddət ərzində Ermənistan Batum müqaviləsinin şərtlərinə məhəl qoymayaraq, yeni ərazilər ələ keçirmək üçün hərbi təcavüzünü davam etdirməklə yanaşı, Dağlıq Qarabağa dair ərazi iddiası irəli sürmüşdü. Azərbaycan hökuməti Ermənistanda və sərhəd bölgələrdə erməni silahlı birliklərinin törətdikləri qırğınların dayandırılması üçün Tiflisdəki diplomatik nümayəndəlikvasitəsilə Ermənistan hökumətinə etiraz məktubları və diplomatik notalar göndərirdi. Bunlar kifayət etmədikdə, 1919-cu il yanvar ayının 29-da Məhəmməd xan Təkinski Azərbaycanın Ermənistanda diplomatik nümayəndəsi təyin edildi. Ermənistan hökuməti yalnız 1919-cu il fevralın 1-də Azərbaycanın İrəvan şəhərində daimi nümayəndəliyinin fəaliyyətə başlamasına razılıq verdi. Bu vaxta qədər isə İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri vəhşiliklər barədə beynəlxalq təşkilatları, Azərbaycan mətbuatını və rəsmi dairələrini İrəvan Müsəlman Milli Şurası, İrəvan Müsəlman Xeyriyyə Cəmiyyəti və İrəvan Quberniyası Həmyerliləri Təşkilatı məlumatlandırırdı. Təşkilatın 1919-cu il yanvarın 17-də keçirilən iclasında Azərbaycan hökumətinə müraciət qəbul olunmuşdur. Təşkilatın sədri Teymur xan Makinskinin imzası ilə göndərilən müraciətdə qeyd edilirdi ki, türk qoşunlarının İrəvan quberniyasından çəkilməsindən sonra erməni silahlı qüvvələri Sürməli qəzasını bütünlüklə və Eçmiədzin qəzasının tamamilə müsəlmanlar yaşayan hissəsini ələ keçirmiş, üstəlik, Şərur və Naxçıvan qəzalarını ələ keçirmək üçün hücuma keçmişlər. Məhv olmağa və ölümə məhkum edilmiş İrəvan quberniyası müsəlmanlarını xilas etmək üçün müttəfiqlərin komandanlığının iştirakı ilə Tiflisdə Azərbaycan və Ermənistan nümayəndələrinin xüsusi konfransının təşkil olunması təklif edilirdi.[9]

---

[7] Nəsibli, *Azərbayan Demokratik Respublikasının xarici siyasəti*, 96-97.
[8] Musa, *Azərbaycan beynəlxalq münasibətlər sistemində (mart 1917 - aprel 1920-ci illər)*, 95-96.
[9] Nazim Mustafa, *Azərbaycan Xalq Cümhuriyyəti işığında (1918-1920*, Bakı:Ulu, 2018, 140-142.

1919-cu ilin yanvarından daşnakların Zəngəzura silahlı təcavüzü nəticəsində bu ərazidən zorla qovulmuş 40 mindən çox azərbaycanlı Qarabağın Cəbrayıl, Şuşa və Cavanşir qəzalarında və Cümhuriyyətin başqa ərazilərində yerləşdirildi. 1919-cu ildə bütün il boyu Ermənistanda həyata keçirilən soyqırımları nəticəsində Azərbaycana pənah gətirən türk-müsəlman əhalinin sayı günbəgün artırdı. Lakin müsəlman qaçqınların bir hissəsi hələ də Ermənistan respublikasında idi. Bu səbəbdən də, Himayəçilik Nazirliyinin fəaliyyət istiqamətlərindən biri də xaricdə yaşayan soydaşlara, müsəlman qaçqınlarına kömək etməkdən ibarət olmuşdur. 1919-cu il fevralın 17-də "Ermənistanın müsəlman əhalisinə yardım göstərilməsi barədə" qanunda Ermənistandakı Azərbaycan diplomatik nümayəndəsinə məlumat verilir ki, müsəlman qaçqınlarına verilən 20 min pud kerosini İrəvan Müsəlman Milli Komitəsi vasitəsilə satılsın və gəlirdən 500 min həmin komitə vasitəsilə qaçqınlar arasında paylanılsın. Himayədarlıq nazirliyinə bu kerosinin İrəvana daşınması ilə bağlı bütün xərcləri öhdəsinə götürməsinə göstəriş verilir.[10]

Ermənistandakı müsəlman əhalinin vəziyyətinin yaxşılaşdırılması üçün hökumət bir sıra qanunlar qəbul etmişdir: "Ermənistanın aclıq çəkən əhalisinin ehtiyacları üçün rüsumsuz 5000 pud buğdanın buraxılmasına icazə verilməsi" (Ermənistandakı müsəlman əhali nəzərdə tutulurdu.-N.X.) (1919-cu il 30 aprel), "İrəvan quberniyasının müsəlman qaçqınlarının ehtiyacları üçün vəsaitlərin buraxılmasına dair" (1919-cu il 19 may), "Rüsumsuz olaraq 10 min pud un və buğdanın Ermənistandakı müsəlman qaçqınların ehtiyaclarını ödəmək üçün buraxılması" qanunu (1919-cu il iyunun 6-da) və s. Qeyd etmək lazımdır ki, qaçqınlara köməyi yalnız hökumət deyil, parlament də öz üzərinə götürmüşdü. Cümhuriyyət parlamenti 1919-cu il iyulun 17-də "Ermənistanda yaşayan müsəlman qaçqınların vəziyyətini yaxşılaşdırmaq məqsədilə Himayədarlıq Nazirliyinin smetadan əlavə 3000000 rubl vəsaitin ayrılması haqqında qanun layihəsi" qəbul etmişdi. Azərbaycan hökuməti müsəlman qaçqınların Ermənistanda kütləvi ölümünə biganə qalmamış, bu səbəbdən təcili 3 milyon rubl vəsaitin ayrılması və buğda ilə un alınıb Ermənistana göndərilməsi və müsəlman qaçqınların aclıqdan ölüb, qırılmasının qarşısını almaq qərara alınmışdı.[11]1919-cu ilin iyulunda 3 milyon manat vəsait ayrılır. Bu vəsait hesabına İrəvandakı azərbaycanlı əhaliyə 15 vaqon un, taxıl, arpa göndərilir.

---

[10]Azerbaydjanskaya Demokraticeskaya Respublika (1918-1920 qq). Zakonodatelnıe aktı (Zbornik dokumentov), Baku: Azerbaydjan, 1998, 435.
[11]ARDA, fond 895, siyahı. 3, iş 178, v. 1-4.

Azərbaycan hökuməti özünün ağır vəziyyətdə olmasına baxmayaraq Gürcüstanda yaşayan yoxsul müsəlman əhalisinə də yardım edirdi. 1919-cu il aprelin 5-də Gürcüstan Respublikasının Axalsıx qəzasındakı müsəlman qaçqınlara köməyin təşkil edilməsi haqqında qanunla, Gürcüstandakı diplomatik nümayəndəyə Gürcü hökuməti ilə təcili şəkildə razılıq alıb, Axalsıx qəzasındakı zərərçəkmiş müsəlmanlara diplomatik nümayəndəliyin vəsaitindən 200 min rubl buraxılması istənilir. 1920-ci ilin martında hökumət Axalsix və Axalkələki qəzalarının yoxsul əhalisinə 140 min manat pul verilmişdi.[12]

1919-cu il sentyabrın 1-dən etibarən İrəvanda müsəlmanlar üçün ambulatoriya açılmış, orada 85 nəfərlik uşaq evi təşkil edilmişdi. Hansı ki, sonralar bu uşaq evi Amerikanın Uşaqlara Yardım Komitəsinin sərəncamına verilmişdi. Ermənistandan və Qars vilayətindən qaçqın düşən müsəlmanlara yardım göstərilməsi üçün onların keçdiyi yolların üzərində səyyar qida məntəqələri (pulsuz yeməkxanalar açılmışdı) Himayəçilik Nazirliyinin göstərişi ilə belə qida məntəqələri Aşağı Saral stansiyasında və Tiflis yaxınlığında açılmışdı.[13]

### a.3.Qaçqınlar Məsələsi Üzrə Dövlətlərarası Komissiya

Paris Sülh konfransının öz işinə başlaması, Qafqaz dövlətlərinin əməkdaşlığını zəruri edirdi. 1919-cu ilin fevral ayının 21-də Gürcüstanın Xarici İşlər naziri Azərbaycan hökumətinə nota ilə müraciət edib, qonşu ölkələr arasında dəmiryol hərəkətini, poçt və teleqraf mübadiləsi sahəsindəki problemləri, gömrük, maliyyə və mal mübadiləsi məsələlərini müzakirə etmək üçün Azərbaycan, Gürcüstan, Ermənistan və Dağlılar Respublikasının yüksək səlahiyyətli nümayəndələrindən ibarət konfransın keçirilməsini təklif etdi. Azərbaycan hökuməti bu müraciəti qəbul edərək, mart ayının 5-də daha altı təklifi konfransın müzakirəsinə təqdim etdi. Bu təkliflərdən biri qaçqınlar məsələsinin müzakirəsi idi.[14] F.X.Xoyski başda olmaqla Azərbaycan nümayəndə heyəti Tiflisə yola düşdü və aprel ayının 25-də konfrans işə başladı. Konfransın gedişində onun gündəliyində duran məsələləri həll etmək üçün altı komissiya yaradıldı. Azərbaycan nümayəndələrindən doktor M.Vəkilov və podpolkovnik M.Əliyev qaçqınlar komissiyasına daxil edildilər.[15] İkinci Qafqaz konfransının ən mühüm nəticələrindən biri ərazi-sərhəd məsələlərinin həlli prinsiplərinin müəyyən edilməsi, birgə bon

[12]ARDA, fond 84, siyahı 1, iş. 23, c. 1, v. 175.
[13]ARDA, fond 897, siyahı 1, iş 40, v. 1-204.
[14]Cəmil Həsənli, *Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti,* Bakı: Garisma MMC, 2009, 214.
[15] ARDA, fond 897, siyahı 1, iş 47, v. 5-6.

buraxılması, köçəri əhalinin hərəkət qaydalarını, maliyyə və iqtisadi məsələlərdə bir sıra razılaşmaların əldə edilməsi idi.

Eyni zamanda qaçqınların öz əvvəlki yerlərinə qaytarılması üçün Dövlətlərarası Komissiyanın yaradılması bu problemin həllində mütərəqqi addımlardan biri idi. Zaqafqaziya Konfransının qaçqınların işi üzrə Komissiyanın Prezidiumunun (Rəyasət heyətinin) 1919-cu il mayın 19-da Daxili İşlər Nazirliyində iclası keçirildi. Zaqafqaziya Konfransında Prezidium qaçqınların öz doğma yerlərinə qayıtması ilə bağlı proqramla məşğul idi.

Zaqafqaziya Konfransının qaçqınların işi üzrə Komissiyanın Prezidiumunun 1919-cu il mayın 22-də Gürcüstan Respublikasının Daxili İşlər Nazirliyində növbəti iclası keçirilir. İclas qaçqınların evakuasiyasına dair məsələlərin daha da aydınlaşdırılmasına, Zaqafqaziya Konfransının müzakirəsi üçün Komissiyanın hazırlanmasına həsr edilmişdi. A.M.İvanyan qaçqınların evakuasiyasını təşkil etmək üçün dörd respublika nümayəndəsindən ibarət xüsusi orqanın yaradılması haqqında danışaraq, Zaqafqaziyada Gürcüstanın coğrafi cəhətdən əlverişli yerdə yerləşməsi səbəbindən yaradılacaq orqanın Tiflisdə yerləşməsini təklif edir. R.X.Xoyski İvanyanın fikri ilə razılaşaraq əlavə edir ki, mərkəzləşmiş komissiyaya dörd respublikadan hər birindən bir nümayəndə daxil olsun və onlara geniş səlahiyyətlər verilsin.

1919-cu il mayın 20-də Zaqafqaziya konfransının Qaçqınlar Komitəsi öz işinə başladı. Konfransın işində Azərbaycandan nümayəndələr F.X.Xoyski, D.B.Sultanov, Gürcüstandan N.X.Çiqvaidze, Q.A.Naneyşvili, Ermənistandan Davudxanyan və İvanyan, Şimali Qafqaz Dağlılarının İttifaqından Ujakov və X.B.Qasımbəyov iştirak edirdilər. Tərəflər razılığa gəlirlər ki, qaçqınlar məsələsini həll etmək üçün ilk növbədə onlar əvvəlki yaşayış yerlərinə qaytarılmalı, təhlükəsizliklərinə təminat verilməli və onlara dağıdılmış təsərrüfatlarını bərpa etmək üçün maddi köməklik göstərilməlidir. Növbəti iclasda sadalanan məsələlərin həllinə komissiya yekdil səslə, Zaqafqaziya və Şimali Qafqazda qaçqın problemlərini tənzimləmək üçün onları öz əvvəlki yerlərinə qayıtmasının təmin olunmasına və onların təhlükəsizliyi, maddi və mənəvi itkilərinin dağıdılmış təsərrüfatın bərpasını təmin etmək lazım olduğuna qərar vermişdir.

Bu məsələləri həyata keçirmək üçün komissiya Zaqafqaziya və Şimali Qafqaz qaçqınları üçün "Qaçqınlar məsələsi üzrə dövlətlərarası komissiya" yaratdı. Bütün qaçqınlar məsələsi bu komissiya tərəfindən icra olunmalı idi.[16] Azərbaycan nümayəndə

[16]ARDA, fond 970, siyahı 1, iş 73, v. 1-37.

heyətinin təklifi və təkidi ilə qaçqınların öz əvvəlki yaşayış yerlərinə qaytarılması qərara alınır. Komissiya yalnız 1914-cü il sərhədləri daxilində (Rusiya Türkiyə sərhədləri nəzərdə tutulur) qaçqınların məskunlaşdırılmasını qərara alır. Lakin dövlətlərarası komissiyanın maliyyələşdirilməsi məsələsində ümumi razılığa gəlmək mümkün olmur. Ermənistan nümayəndə heyəti qaçqınların məskunlaşdırılması zamanı hər respublikanın eyni miqdarda vəsait ayırmasını təklif edir. Gürcüstan nümayəndə heyəti ərazi prinsipi üzrə, Azərbaycan nümayəndə heyəti isə milli mənsubiyyətinə görə qaçqınların məskunlaşdırılması üçün vəsait ayrılmasını tələb edir. Lakin bu məsələdə ümumi razılığa gəlinmədiyindən, müəyyən qərar qəbul etmək mümkün olmur.[17]

Denikinin Dağıstana hücumu ilə əlaqədar olaraq konfrans işini yarımçıq saxladı. Denikinin Dağıstana soxulması Azərbaycan Cümhuriyyəti və müəyyən dərəcədə Gürcüstan üçün təhlükə törədirdi. Elə bu zəmində də 1919-cu ilin yayında iki respublikanın yaxınlaşması başladı və bu yaxınlaşma strateji əməkdaşlıq səviyyəsinə yüksəldi.

Azərbaycan hökuməti 1919-cu il iyunun 4-də İrəvandakı diplomatik nümayəndəsi M.Təkinskiyə tapşırıq vermişdi ki, İrəvan quberniyasının və Qars vilayətinin erməni silahlı qüvvələri tərəfindən dağıdılmış kəndləri, orada öldürülənlərin ad-familiyaları, əsir götürülənlər, oğurlanmış sürülərhaqqında statistik rəqəmləri toplayıb göndərsin. Azərbaycan hökuməti bu faktlardan Paris sülh konfransının işində itsifadə etmək istəyirdi. İrəvan Müsəlman Milli Şurası bu faktlardan böyük dövlətlərdən Qafqazdakı missiyalarının başçılarına müraciətində istifadə etmişdi. Ermənistandakı qaçqınların problemini həll etmək üçün Cümhuriyyətin Nazirlər Şurası 1919-cu il iyunun 7-də Himayəçilik Nazirliyinin Müvəkkili vəzifəsini yaradır. 1919-cu il iyulun 8-dən etibarən vəkil Zülfüqar bəy Makinski Himayəçilik nazirliyinin İrəvanda müvəkkili kimi işə başlayır.[18]

Azərbaycan hökuməti getdikcə kəskinləşən qaçqınlar problemini həll etmək üçün 1919-cu il iyunun 23-də Ermənistan rəhbərliyinə hər iki dövlətin nümayəndələrindən ibarət birgə mərkəzi komissiyanın yaradılması təklifi ilə müraciət edir. Komissiyanın tərkibinə hər iki tərəfdən 2 nəfər daxil olmalı idi. 1919-cu il 23 iyun “Qaçqın və məcburi köçkünlərin vəziyyətini aydınlaşdırmaq üçün Mərkəzi Komissiyanın yaradılması və onların daimi yaşayış yerlərinə qayıtması barədə qərar” da nəzərdə tutulur: 1)Kənd Təsərrüfatı Nazirinə tapşırılsın: a) Bakı şəhərində Daxili İşlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və Himayədarlıq Nazirliyinin nümayəndələri tərəfindən ölkə

[17]ARDA, fond 897, siy. 1, iş 46, v. 7.
[18]Mustafa, *Azərbaycan Xalq Cümhuriyyəti işığında (1918-1920),* 73-74.

ərazisində qaçqınların vəziyyətini araşdırmaq üçün Mərkəzi Komissiya yaradılsın, ən qısa müddətdə hökumətin tapşırıqlarına uyğun iş planı təsdiq edilməsi üçün təqdim edilsin; b) quberniya və qəzalarda Mərkəzi Komissiyaya tabe olan yerli komissiyalar təşkil edilsin. 2)Xarici İşlər Nazirindən qaçqın məsələsinin tez və mümkün olduğu qədər ağrısız şəkildə həll edilməsi üçün beynəlxalq komissiyanın təşkili barədə Ermənistan Respublikası ilə münasibətlər qurmaq tapşırılsın.[19]

Himayədarlıq Nazirliyinin məlumatlarına əsasən, Cümhuriyyət ərazisində qaçqınların ümumi sayı 107164 nəfərə çatmışdır ki, onlardan 97897 nəfəri azərbaycanlı, 8469 nəfəri erməni, 498 nəfər rus, 300 nəfər isə yəhudilər idi.[20]

1919-cu il iyunun 25-də Ermənistan Xarici İşlər Naziri Tiqranyan Azərbaycan hökumətinə müraciət edərək komissiyanın yaradılmasına tərəfdar olduğunu bildirdi. İyulun 6-da Ermənistanın Azərbaycandakı nümayəndəsi ilə N.Yusifbəyli və M.Cəfərov arasında erməni-azərbaycanlı münasibətlərinə dair məsələ müzakirə edildi. Müzakirələr zamanı Ermənistanda azərbaycanlıların, Azərbaycanda isə ermənilərin vəziyyətini araşdırmaq üçün komissiya yaradılması haqqında razılıq əldə olundu. Lakin Ermənistan tərəfi Azərbaycan nümayəndələrinə araşdırma aparmaları üçün heç bir şərait yaratmadı və komissiyanın fəaliyyəti nəticəsiz qaldı.

1919-cu il oktyabrın 1-də Məhəmməd xan Təkinski Azərbaycan Xarici İşlər nazirinin müavini vəzifəsinə təyin olunur. Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi vəzifəsinə 24 avqust 1919-cu ildə görkəmli Azərbaycan yazıçısı və ictimai-siyasi xadimi Əbdürrəhim bəy Haqverdiyev təyin olunmuşdur. Ermənistanda və Qars vilayətində türklərə qarşı törədilən soyqırımının Birləşmiş Dövlətlərin Ali Komissarlığına, xarici ölkələrin Qafqazdakı nümayəndəliklərinə çatdırılmasında, qaçqınların vəziyyətinin yüngülləşdirilməsində Əbdürrəhim bəy Haqverdiyev xeyli iş görmüşdür.

Himayədarlıq Nazirliyinin Ermənistandakı müvəkkili Teymur bəy Makinskinin 11 noyabr 1919-cu ildə nazirliyə göndərdiyi məruzəsində Ermənistan hökumətinin əsl siması açılırdı: "1918-ci ilin fevralından davam edən qırğınlar nəticəsində 0,5 milyon əhali dilənçi vəziyyətinə düşüb (Naxçıvan qəzasından, Şərur məntəqəsindən, Sürməli məntəqəsinin 2-3-cü polis sahələrindən və Zəngibasar rayonundan başqa). Həmin ərazilərdə müsəlman əhali hər şeyini itirib. Dağıntıya məruz qoyulan rayonlarda əhali 200 min nəfərdən artıqdır. Onlar xəstəlikdən və aclıqdan məhv olurlar, dəfələrlə

[19] ARDA, fond 894, siyahı 1, iş. 23, v. 59.
[20] ARDA,, fond 84, siyahı 1, iş 23, v. 197-198.

talanlara və qırğınlara məruz qalıblar. Bu kateqoriyaya İrəvan şəhərinin müsəlmanları, Zəngibasarın Göykümbət, Arbat, Ağcaqışlaq və Çarbax kəndləri aiddir. Qəti demək olar ki, ölənlərin sayı 100-120 min nəfərdir. 50 min nəfər Azərbaycana qaçqın kimi gəlib. Təqribən bir o qədər İrəvanda, Zəngibasar rayonunda, Sürməli qəzasının 2 məntəqəsində və Eçmiədzində yaşayır. Qalan qaçqınlar Naxçıvan qəzasına, Şərur məntəqəsinə, Sürməli qəzasının 3-cü sahəsinə və Qars vilayətinin Qağızman dairəsinə sığınıblar. Bəziləri Maku xanlığına və Türkiyə ərazisinə köçüblər. İndiki məqamda 50 min nəfərə ərzaq yardımı (un, taxıl və çörək şəklində) göstərilməlidir. İrəvan şəhərində aclıq keçirən əhalinin sayı 8 min nəfərdir".[21]

1919-cu ilin aprelində Gürcüstanhökumətinin təklifi ilə çağırılan Ümumqafqaz konfransının işi yarımçıq qaldığından Azərbaycan Hökuməti avqustda onun işinin yenidən bərpa edilməsinə razılıq vermişdi. Azərbaycan Hökuməti, eyni zamanda, hər iki dövlətə aid mübahisəli məsələlərin həlli üçün Ermənistan - Azərbaycan iclasının çağırılması haqqında Ermənistan hökumətinin təklifini də qəbul etmiş, erməni tərəfinin təklifində göstərilən məsələlərin gündəliyə daxil edilməsinə etiraz etməmiş, iki dövlət arasında təkcə müvəqqəti demarkasiya xəttinin yaradılması məsələsini deyil, Azərbaycan və Ermənistan respublikaları arasındakı bütün sərhəd mübahisələrinin qəti həlli məsələsini müzakirə etməyi zəruri saymışdı.

Konfrans ərəfəsində, 1919-cu il noyabrın 23-də Azərbaycan və Ermənistan respublikaları arasında saziş imzalandı. Dekabrın 14-də Bakıda Azərbaycan-Ermənistan danışıqları başladı. Konfransın dekabrın 15-də növbəti iclasında müzakirə ediləcək məsələlər ətrafında fikir ayrılığı yarandı. Ərazi məsələsinin müzakirəsi 17 dekabr iclasında da baş tutmamış, konfransın sonuncu - 21 dekabr tarixli iclasında tərəflər arasında əvvəlki iclaslarda razılaşdırılmış formada əlavə məsələlər müzakirəyə çıxarılmışdı. Ərazi, qaçqınlar, ticarət və dəmir yollarına dair müqavilələrin bağlanması məsələlərinə əlavə olaraq, hər iki respublika vətəndaşlarının məhkəmə-hüquq münasibətlərinə dair, həmçinin, Azərbaycan və Ermənistanın müxtəlif şəhərlərində konsulluqların təsisi məsələləri də konfransın gündəliyinə daxil edilmişdi.

Konfrans Bakıdakı işini yekunlaşdıraraq, konfederasiya məsələsi ilə yanaşı, qalan məsələlərin də müzakirəsini Tiflis konfransına keçirməyi qərarlaşdırdı. Konfrans bəyan etdi ki, hər iki respublika arasında hərbi əməliyyatlar dayandırılmalı və bütün mübahisəli məsələlər sülh yolu ilə həll olunmalıdır. Ümumiyyətlə isə, konfrans iki

[21]Mustafa, *Azərbaycan Xalq Cümhuriyyəti işığında (1918*-1920), 147-150.

dövlət arasındakı gərgin münasibətlərə heç bir aydınlıq gətirmədi, mübahisəli sərhəd-ərazi məsələlərinin, o cümlədən Zəngəzur probleminin həllində əməli addımlar atmadı, tərəflər arasındakı ziddiyyətləri həll edə bilməyərək, işini yarımçıq dayandırdı.[22]

Ə.Haqverdiyev Ermənistanda daimi nümayəndə vəzifəsindən istefa verdikdən sonra 1920-ci il martın 16-da onun yerinə Himayədarlıq Nazirliyinin Ermənistandakı müvəkkili Teymur bəy Makinski təyin edilmişdi.[23]

Zaqafqaziya respublikalarının konfederasiyasını yaratmaq haqqında Azərbaycan nümayəndə heyətinin təklifinə cavab olaraq Ermənistan nümayəndə heyəti bu məsələni həll etmək üçün konfransın işini Gürcüstan tərəfi ilə birlikdə Tiflisdə davam etdirməyi təklif edir və bu təklif qəbul edilir. Konfrans 1920-ci il aprelin 9-da Tiflisdə işə başlayır. "Mübahisəli ərazi" hesab edilən Borçalı qəzasının sərhədlərinin müəyyən edilməsi ilə əlaqədar Gürcüstanla Ermənistan arasında əldə edilən birtərəfli razılaşmaya yanvarın 22-də Azərbaycan hökuməti etiraz etmiş, bütün mübahisəli ərazi problemlərinin həllində maraqlı tərəflərin hamısının iştirakının zəruri olduğu və bu razılaşmanı tanımadığını bildirmişdi. 1920-ci ilin yanvarında Paris sülh konfransında Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin rəsmən tanınmasından sonra belə, ərazi mübahisələrinə, milli münaqişələrə son qoyulmamışdı.

[22] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, İki cilddə, c.1, Bakı: Lider, 2004, 152-153.
[23] Mustafa, *Azərbaycan Xalq Cümhuriyyəti işığında (1918-1920),* 152.

## Nəticə

Beləliklə, aydın olur ki, qaçqınlar problemi Cümhuriyyətin Ermənistan və Gürcüstan ilə münasibətlərində xüsusi yer tutmuş, bu problemin həlli üçün geniş diplomatik fəaliyyət göstərilmiş, ölkədəki ağır vəziyyətə baxmayaraq, Gürcüstan və Ermənistan ərazilərində yaşayan azərbaycanlı əhaliyə də müntəzəm yardım edilmişdi. 1919-cu ilin əvvəllərindən 1920-ci ilin əvvəllərinə qədər təkcə Ermənistanın azərbaycanlı əhalisinə yardım göstərilməsinə aid altı qərar qəbul edilmişdi. Onu da qeyd etmək lazımdır ki, öz tarixi ənənələrinə sadiq qalan Azərbaycan Hökuməti, milliyyətindən asılı olmayaraq, sosial vəziyyəti ağır olan bütün insanlara yardım göstərirdi.

## Kaynaklar

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, İki cilddə, c.I, Bakı: Lider, 2004.

Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), fond 84, siyahı 1, iş. 23, c. 1.

ARDA, fond 894, siyahı 1, iş 23.

ARDA, fond 895, siyahı 3, iş 178.

ARDA, fond 897, siyahı 1, iş 40.

ARDA, fond 897, siyahı 1, iş 46.

ARDA, fond 897, siyahı 1, iş 47.

ARDA, fond 970, siyahı 1, iş 1.

ARDA, fond 970, siyahı 1, iş 11.

ARDA, fond 970, siyahı 1, iş 18.

ARDA, fond 970, siyahı 1, iş 54.

ARDA, fond 970, siyahı 1, iş 73.

HƏSƏNLİ C., *Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti(1918-1920)*, Bakı: "Garisma" MMC, 2009.

MUSA İ., *Azərbaycan beynəlxalq münasibətlər sistemində (mart 1917 - aprel 1920-ci illər)*, Bakı: Bakı Universiteti nəşriyyatı, 2011.

MUSTAFA N., *Azərbaycan Xalq Cümhuriyyəti işığında (1918-1920)*,Bakı:Ulu, 2018.

MUSTAFAYEV A., *Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan*, Bakı: ADPU-nun nəşriyyatı, 2013.

NƏSIBLI N., *Azərbayan Demokratik Respublikasının xarici siyasəti*, Bakı: Qanun nəşriyyatı, 2011.

Azerbaydjanskaya Demokraticeskaya Respublika (1918-1920 qq). Zakonodatelnıe aktı (Zbornik dokumentov), Baku: Azerbaydjan, 1998.